**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

***Əlyazması hüququnda***

**SAMİRƏ AZƏR QIZI ƏZİZOVA**

# AZƏRBAYCAN TOY MƏRASİMLƏRİNDƏ MUSİQİ FOLKLORUNUN TƏDQİQİ

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

*Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | sənətşünaslıq üzrə elmlər doktoru, dosent<br>**Cəmilə İsmayıl qızı Həsənova** |
| **Rəsmi opponentlər:** | Azərbaycan Respublikasının<br>Əməkdar incəsənət xadimi,<br>sənətşünaslıq üzrə elmlər doktoru, professor<br>**Şəhla Həsən qızı Həsənova**<br><br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Əfsanə Ağayar qızı Babayeva** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Musiqi və onun tədrisi metodikası" kafedrası.** |

Müdafiə ___28.04___________2017-ci ildə saat ______ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ______________2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Xalqımızın Ulu öndəri Heydər Əliyev milli mədəniyyətimizi qiymətləndirərək, demişdir: "Bizim hamımızı - azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli mədəniyyətimizdir - ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir".

Bu sözlərdə böyük həqiqət vardır. Bu gün xalq mərasim mədəniyyətinin özünəməxsusluğuna və milli xüsusiyyətlərinə müraciət tədqiqatların mühüm tərkib hissəsinə çevrilmişdir. Ölkənin ictimai, mədəni yüksəliş dövründə xalq mədəniyyətinin, xalq ruhunun ifadəçisi olan musiqi folkloruna xüsusi maraq, onun qabaqcıl ictimai və estetik idealların mənbəyinə çevrilməsi müşahidə olunur. Bu mənada Azərbaycan xalqının toy mərasim mədəniyyətinin öyrənilməsi zəruri və aktual vəzifə kimi ortaya qoyulur.

Azərbaycanda mərasim mədəniyyəti xüsusi əhəmiyyət kəsb etmiş və özünəxas inkişaf yolu keçmişdir. Müasir dövrdə milli ənənələrin, adətlərin və mərasimlərin dirçəldilməsi və yeni ənənələrin yaranması tendensiyası özünü göstərir ki, bu da dərin köklərə və ictimai əhəmiyyətə malikdir. Toy mərasimi də bu qəbildəndir.

Toy mərasimi hər bir xalqın həyatında əlamətdar hadisə kimi dəyərləndirilir. Toy – cəmiyyətin tərkib hissəsi olan ailənin yaradılması prosesində onun bünövrəsinin qoyulduğu bir mərhələdir. Ailənin müstəsna əhəmiyyəti və onun vəzifələrinin çoxcəhətliliyi toy mərasiminin mürəkkəbliyini şərtləndirir. Tarixi-mədəni, folklor-etnoqrafik fenomen kimi, toy mərasimi özündə xalqın şifahi poetik və musiqi yaradıcılığını təcəssüm etdirir, bu da ailə həyatı, etik normalar və mənəvi prinsiplərlə bağlı xalqın qədim dünyagörüşünü əks etdirir.

Toy mərasimi və folklor – qədimdə etnosun məişətinin və ictimai həyatının bir çox hadisələrinin dərk olunmasına yol açır. Toy – mədəniyyətin ayrılmaz tərkib hissəsi, milli ruhun təzahürüdür. Toy mərasiminin mərhələlərinin musiqi və poetik tərtibatında gerçəkliyin, bizi əhatə edən aləmin sinkretik qavranılması, xalqın inancları və ayinləri, adət və ənənələri, insan, ailə, uşaq, nəsillərin varisliyi, həyatın mənası haqqında fikirlər öz əksini tapır.

Toy mərasimində xalqın musiqi və poetik yaradıcılığının zənginliyi ilə yanaşı, özünəməxsus janr rəngarəngliyi, ifadə vasitələri, dil-təfəkkür xüsusiyyətləri, obrazlar dairəsi, təsviri-tətbiqi sənət növlərinin, geyim və mətbəx mədəniyyətinin təzahürləri baxımından çoxtəbəqəli quruluşu dərin bir vəhdətdə

özünü göstərir. Toy mərasimində xalqın poetik və musiqi istedadı, ifaçılıq mədəniyyəti, bədii-estetik zövqü, psixoloji düşüncə tərzi, qəlbinin genişliyi öz əksini tapır. Bütün bunlar folklorşünasların, etnoqrafların, tarixçilərin, ədəbiyyatşünasların və musiqişünasların diqqətini cəlb edərək, toy mərasiminin xalq mədəniyyətinin vacib bir sahəsi kimi öyrənilməsini aktuallaşdırır.

Toy mərasimi müəyyən sabit kompozisiya quruluş xüsusiyyətlərinə malik olub, əsrlərin dərinliyindən gələn etnik həyat tərzinin xüsusiyyətlərini, xalqın dünyagörüşünün musiqi, poetik və ədəbi, xoreoqrafik, oyun və tamaşa, tətbiqi sənət növləri, adət-ənənələr və ayinlər vasitəsilə, xalqın yaradıcılıq təfəkkürü ilə canlanan boyalarla bizə çatdırır. Bütün bunlar toy mərasimini mürəkkəb quruluşa malik xalq yaradıcılığı növü kimi xarakterizə etməyə əsas verir.

Azərbaycan ərazisində ümumilikdə götürdükdə, toy mərasimi adət-ənənələri özündə cəmləşdirən, bir-birilə əlaqədar mərhələlərdən və tərkib hissələrindən ibarət mərasim kimi xarakterizə olunur. Bu mərasimin həm ayrı-ayrı hissələrinin, həm də bütövlükdə kompleks halda öyrənilməsi zəruridir və hazırkı dissertasiyada aktual məsələ kimi irəli sürülür.

Toy mərasimi milli folklorun bütün rəngarəngliyini özündə əks etdirir. Onun tərkib hissələri – toyun ardıcıl icra olunan mərhələlərindən, adət-ənənələrdən ibarətdir. Bu mərhələlərdən hər biri özünəməxsus hərəkət, davranış, dialoq, şeir, mahnı, rəqs və s. tərtibat xüsusiyyətlərinə malikdir. Bütün bunlar həm ayrı-ayrılıqda öyrənilə bilən sahələrdir və mütəxəssislərin diqqətini cəlb edir. Eyni zamanda, bunların kompleks öyrənilməsi də vacibdir. Bu baxımdan xalqın həyatını və mədəniyyətini canlandıran böyük həcmli musiqi təbəqəsinin öyrənilməsi müasir dövrdə aktuallıq təşkil edir.

Burada toy mərasimlərinin bədii tərtibatı məsələsinə diqqət yetirilməsi vacibdir, çünki mərasimlərdə həm musiqi sənəti, həm teatr, həm də dekorativ-tətbiqi sənətlər böyük rol oynayır. Mərasimlərdə ayinlərin ayrılmaz hissəsinə çevrilən musiqiyə xüsusi yer verilməsi də bu baxımdan vacib amildir.

Müasir dövrdə toy mərasiminin tərtibatı, şəkli dəyişsə də, qədim adət-ənənələrin xalqın təfəkküründə kök salmış bir çox sabit cəhətləri özünü qabarıq büruzə verir. Bu baxımdan toy mərasiminin və onun ayrılmaz tərkib hissəsi olan musiqi folklorunun tədqiqi zəruridir və hazırkı dissertasiya mövzusunun aktuallığını şərtləndirir.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Azərbaycan toy mərasim mədəniyyətinin öyrənilməsi məsələləri Azərbaycan folklorşünaslığında xüsusi tədqiqat sahəsi kimi formalaşmışdır. Azərbaycan toy mərasim mədəniyyəti kontekstində incəsənət sahələrinin, xüsusilə musiqi folklorunun öyrənilmə-

si mühüm əhəmiyyətə malikdir.

Bizim tədqiqatın nəzəri bazasını Azərbaycan musiqişünaslarının tədqiqatları təşkil edir. Tədqiqatımız üçün vacib olan aspektdə Üzeyir Hacıbəylinin[1], Məmmədsaleh İsmayılovun[2], Bayram Hüseynlinin[3], Əfrasiyab Bədəlbəylinin[4], Əhməd İsazadənin[5], Səadət Abdullayevanın[6], Gülnaz Abdullazadənin[7], Kamal Həsənovun[8], Elnara Dadaşovanın[9], Sevil Fərhadovanın[10], Fəttah Xalıqzadənin[11], Rauf İsmayılzadənin[12], Tariyel Məmmədovun[13], Rəna Məmmədovanın[14], Əfruzə Məmmədovanın[15], Səltənət Tağıyevanın[16],

---

[1] Hacıbəyli Ü.Ə. Azərbaycan türklərinin musiqisi haqqında. (Təqdim edəni, ön söz və lüğətin müəllifi F.Əliyeva). B: Adiloğlu, 2005. 76 s.; Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. B: "Apostrof" çap evi, 2010. 176 s.; Hacıbəyov Ü.Ə. Azərbaycan musiqi həyatına bir nəzər. Əsərləri. II cild. Azərb.EA-nın nşri. Bakı, 1965. s.215-225.

[2] İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənmiş və tamamlanmış nəşri – B: İşıq, 1984; İsmayılov M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. B: Elm, 1991.

[3] Hüseynli B.X. Vokal və instrumental musiqi formaları və janrları. // "Musiqi və həyat". Məqalələr məcmuəsi. B: Azərb.SSR "Bilik" cəmiyyəti, 1961, s.12-19.; Hüseynli B.X. Azərbaycan xalq rəqs musiqisinin klassifikasiyası. // Искусство Азербайджана. Вып. XII. Изд. АН Азерб.ССР. Б.: 1968. с. 67-94.

[4] Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti. B: Elm, 1969.

[5] İsazadə Ə.İ. Azərbaycan musiqi folklorunun öyrənilməsi tarixindən // Azərbaycan xalq musiqisi. Oçerklər. B: Elm, 1981, s. 5-29.

[6] Abdullaeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). B: Adiloğlu, 2002; Abdullayeva S.A. Azərbaycan folklorunda çalğı alətləri. B: Adiloğlu, 2007.

[7] Абдуллазаде Г.А. Философская сущность музыкального искусства. Б.: Ишыг, 1985.

[8] Həsənov K.N. Azərbaycan qədim folklor rəqsləri. B: İşıq, 1988

[9] Dadaşova E.R. Azərbaycan xalq rəqslərində melodik yönəlmə və modulyasiyalar. Sənətşünaslıq namizədi... diss... avtoreferatı. B: 2008.

[10] Фархадова С.Т. Обрядовая музыка Азербайджана (на примере траурных песнопений и свадебных песен). Б.: Элм, 1991

[11] Xalıqzadə F.X. Azərbaycanın ənənəvi xalq musiqisi atlası. // "Musiqi Dünyası" jurnalı, № 3-4 (17), 2003. s.152-159; Xalıqzadə F.X. İlisunun musiqi etnoqrafiyası dünən və bu gün. // "Musiqi Dünyası". № 1-2(11), 2002. s.130-139

[12] İsmayılzadə R.Y. Azərbaycan xalq mahnıları. // Azərbaycan xalq musiqisi (oçerklər). B: Elm, 1981. s.52-85.

[13] Мамедов Т.А. Традиционные напевы азербайджанских ашыгов. Б.: Ишыг, 1988. 350 с.; Məmmədov T.A. Audiovizual etnomusiqişünaslıq – musiqi elminin aktual istiqaməti kimi. // "Musiqi dünyası" jurnalı, № 1-2, 2004, s.101-104.

[14] Мамедова Р.А. Музыкальная тюркология. Б.: Элм, 2002

[15] Мамедова А.З. Музыкальные миниатюры Азербайджана. Б.: Элм, 1980

[16] Тагиева С.Н. Обрядовая культура и музыкальный фольклор тюркских народов. Б.: Элм, 2007

Səadət Seyidovanın[17], Ramiz Zöhrabovun[18], Leyla Zöhrabovanın[19], və başqa musiqişünas alimlərin tədqiqatları mühüm əhəmiyyətə malikdir. Azərbaycan musiqisinin qaynaqlarını öyrənən bütün bu müəlliflərin əsərlərində qədim və orta əsrlərdən başlayaraq, müasir dövrə kimi Azərbaycanın şifahi ənənəli musiqi mədəniyyətinin inkişaf yolları araşdırılmış və musiqi elminin tərəqqisi üçün önəmli olan müddəalar irəli sürülmüşdür.

Azərbaycan mahnılarında, rəqslərində, instrumental havalarda mərasim musiqisi öz əksini tapır. Bütün bunlar not məcmuələrində, səsyazılarında həkk olunan musiqi folkloru nümunələrində, həmçinin folklor mühitində canlı səslənən ifada özünü göstərir. Bu baxımdan, Səid Rüstəmov, Bayram Hüseynli, Fikrət Əmirov, eləcə də digər bəstəkar və musiqişünaslar tərəfindən həyata keçirilən xalq mahnı və rəqslərinin not yazıları[20] qiymətli mənbələrdir. Eyni zamanda, Tariyel Məmmədovun rəhbərliyi altında "Musiqi dünyası" jurnalının əməkdaşları tərəfindən yaradılmış "Azərbaycanın musiqi atlası", "Azərbaycan diskoqrafiyası", "Ənənəvi musiqi", "Kitabi-Dədə Qorqud ensiklopediyası" kimi saytlar[21] toy mərasim folklorunun öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

---

[17] Seyidova S.A. Qədim Azərbaycan mərasim musiqisi. B.: Mars-Print, 2005

[18] Zöhrabov R.F. Muğam. B.: Azərnəşr, 1991

[19] Zöhrabova L.R. Azərbaycan xalq rəqslərində melodik xüsusiyyətlərin tədqiqi. Sənətşünaslıq üzrə fəlsəfə doktoru… diss… avtoreferatı. B: 2010; Zöhrabova L.R. Azərbaycan xalq rəqslərinin lad-məqam xüsusiyyətləri. Dərs vəsaiti. B: Mars-Print, 2013.

[20] Azərbaycan türk el nəğmələri. (nota salanlar Ü.Hacıbəyov və M.Maqomayev). B.: Azərnəşr, 1927; təkrar nəşr B.: 1985; Azərbaycan xalq mahnıları (not yazısı S.Rüstəmovun, F.Əmirovun, T.Quliyevin; redaktor Bülbül). 2 dəftər, B.: 1956-1958; Azərbaycan xalq rəqs musiqisi. Dərs vəsaiti. Nota köçürəni və tərtib edənlər: A.Quliyeva, M.Quliyev. B: 2011.; Азербайджанские народные лирические песни (составитель Д.Мамедбеков). М., Музыка, 1966.; Абдуллаева С.А. Азербайджанская инструментальная музыка (под ред. В.Петрова). М., Музыка, 1990; Rüstəmov S.Ə. Azərbaycan rəqs havaları. B: Azərnəşr, 1937. Yeni nəşr, 1950; Rüstəmov S.Ə. Azərbaycan xalq mahnıları. B: 1967; İsazadə Ə.İ., Məmmədov N.H. Xalq mahnıları və oyun havaları. B.: Elm, 1975, 85 s.; İsazadə Ə.İ., Məmmədov N.H. Azərbaycan xalq mahnıları və oyun havaları. B.: Elm, 1984; Quliyev T.Ə., Bağırov Z.C., İsmayılov M.C. Azərbaycan xalq rəqsləri. B.: Azərb. Dövlət mus.nəşr., 1951; Hüseynli B.X. Azərbaycan xalq rəqs melodiyaları. I dəftər, Yallı. B.: Azərb.Dövlət Nəşriyyatı. 1965; II dəftər, Halay. B.: 1966; Bəhmənli R. Azərbaycan xalq rəqsləri. (redaktor G.Abdullazadə). B: 2002.

[21] http://atlas.musigi-dunya.az; http://diskografiya.musigi-dunya.az; http://enene.musigi-dunya.az; http://dede.musigi-dunya.az.

Tədqiqatın elmi bazası kimi Azərbaycan tarixçilərinin və etnoqrafların, maarifçilərin, mədəniyyət xadimlərinin əsərləri[22] çıxış edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Azərbaycan toy mərasim mədəniyyətinin çoxtəbəqəliliyini, musiqi tərtibatında özünü göstərən janr rəngarəngliyini qarşılıqlı əlaqəli surətdə araşdırmaqdan və musiqi folklorunun tədqiqindən ibarətdir.

Bununla bağlı olaraq, bir sıra vəzivələrin həlli qarşıya qoyulmuşdur: 1) Azərbaycan toy mərasim mədəniyyətinə dair tarixi, kulturoloji, folklorşünaslıq, etnoqrafik, musiqişünaslıq tədqiqatlarının araşdırılması; 2) Toy mərasiminin çoxcəhətli, çoxtəbəqəli bədii-mədəni hadisə kimi xalqın həyatında yeri və əhəmiyyətinin öyrənilməsi; 3) Toy mərasiminin ümumi - ənənəvi və yerli – lokal cəhətlərinin tədqiqi; 4) Toy mərasiminin musiqi tərtibatında xalq mahnı və rəqslərinin, aşıq və muğam sənətinin rolunun araşdırılması; 5) Toy mərasimi ilə bağlı musiqi folkloru janrlarının əsas xüsusiyyətlərinin tədqiqi; 6) Qədim və müasir dövrdə toy mərasim adət-ənənələrinin, musiqi tərtibatının müqayisə olunması, sabit və dəyişilən cəhətlərin üzə çıxarılması və s. cəhətlərə diqqət yetirilir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, bu dissertasiya musiqişünaslıq və etnoqrafiya əlaqələri səviyyəsində Azərbaycan toy mərasim mədəniyyətinin tərkib hissələrinin kompleks öyrənilməsinə həsr olunmuş ilk xüsusi tədqiqatdır. Dissertasiyada ilk dəfə olaraq, Azərbaycanın toy mərasim mədəniyyətində musiqinin yeri və rolu baxımından təhlil aparılır. Mövzunun öyrənilməsi xalq incəsənətinin mənəvi məğzini göstərməyə imkan verir.

Dissertasiyada toy mərasimlərində incəsənətin müxtəlif növlərinin, bədii yaradıcılığın müxtəlif formalarının iştirak etməsi göstərilmişdir. Bu, Azərbaycan toy mərasiminin daxili strukturunu mürəkkəb bədii tam kimi açmağa imkan verdi. Mərasimlərin bədii tərkib hissələrinin vacib detallarının araşdırılması Azərbaycanın etnomədəniyyəti haqqında təsəvvürlərin dərinləşdirilməsinə xidmət edir.

Toy mərasimində incəsənətin rolunun, musiqi folklorunun tətbiqinin öyrənilməsi vasitəsilə Azərbaycan bədii mədəniyyətinin vacib özünəməxsus xüsusiyyətləri aşkar edilmişdir. Təhlilə elmi təcrübəyə daxil olmuş

---

[22] Abdullayev B.A. (Bəhlul Abdulla). Azərbaycan mərasim folkloru. B.: Qismət, 2005; Aslanov E.M. El-oba oyunu, xalq tamaşası. Xalq oyun-tamaşa mədəniyyətimizdə deyim və adların izahlı söz kitabı. B.: 1984; Nəbiyev A.M. Mərasim, alqış nəğmələri. B.: 1986; Nəbiyev A.M. El nəğmələri, xalq oyunları. B.: Azərnəşr, 1988; Sarabski H.M. Köhnə Bakı. B.: 1958; Səlimov-Şağani T.Q. Azərbaycan toyu: ənənə və müasirlik. B.: 2008.

ənənəvi materiallar cəlb edilmişdir ki, bu da dissertasiyanın nəticələrini dərinləşdirməyə və dəqiqləşdirməyə imkan vermişdir.

Dissertasiyada toy mərasimi ilə bağlı xalq mahnıları və xalq rəqslərinin təhlili aparılmış, onların məzmununda mərasimin mərhələləri, adət-ənənələri ilə bağlılıq, musiqi dilində özünü göstərən ənənəvi cəhətlər qeyd olunmuşdur. Bu baxımdan, dissertasiyada ilk dəfə olaraq, Azərbaycan mərasim mədəniyyəti kontekstində musiqi janrlarının qarşılıqlı əlaqələri öyrənilmişdir.

Toy mərasimi ilə bağlı xalq mahnı və rəqsləri tədqiqata cəlb olunaraq, onların özünəməxsus məzmunu və musiqi xüsusiyyətləri qarşılıqlı əlaqəli şəkildə araşdırılmışdır. Toy mərasim musiqisində mühüm yeri olan aşıq və muğam ustadlarının ifaçılığı, onların yaradıcılığında toy adətlərinin təmsil olunması məsələlərinə diqqət yetirilmişdir.

Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq bir ümumi sistemdə – toy mərasimində musiqi folklorunun müxtəlif növlərinin araşdırılması vasitəsilə Azərbaycan incəsənətinin həm məzmun, həm də strukturuna aid vahid funksional əsasları göstərilmişdir. Bütün bunlar Azərbaycan toy mərasim mədəniyyətində mühüm rolu olan şifahi ənənəli musiqi yaradıcılığı nümunələrini araşdırmağa və toy mərasiminin qədim zamanlardan formalaşmış ənənələrinin müasir dövrdə də saxlanılması və dəyişikliyə uğraması məsələlərini üzə çıxarmağa imkan vermişdir.

**Dissertasiyanın metodu və metodoloji əsası.** Tədqiqat zamanı musiqişünaslıqda qəbul olunmuş tarixi-nəzəri və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Ümumilikdə dissertasiyanın metodoloji əsasını musiqişünas alimlərin nəzəri müddəaları təşkil edir.

Azərbaycan musiqişünas və bəstəkarlarının – Ü.Hacıbəylinin, M.İsmayılovun, B.Hüseynlinin, Ə.Eldarovanın, R.İsmayılzadənin, S.Fərhadovanın, F.Xalıqzadənin, R.Məmmədovanın, S.Tağıyevanın, S.Seyidovanın, R.Zöhrabovun və başqalarının Azərbaycan şifahi ənənəli musiqisinin problemlərinə həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasına çevrilmiş, onların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur. Azərbaycan musiqişünasları ilə yanaşı, xarici musiqişünas alimlərin – V.Belyayevin, V.Vinoqradovun, İ.Zemtsovskinin və başqalarının elmi tədqiqatlarından istifadə olunmuşdur.

Dissertasiyada tədqiqatın metodoloji bazası, həmçinin, tarixi, etnomusiqişünaslıq, sənətşünaslıq, etnoqrafik, müqayisəli-tipoloji yanaşmaları birləşdirən kompleks metoda əsaslanır. Bu sırada musiqi faktoru önə çıxarılaraq vurğulanır. Bunun da nəticəsində xalq mərasim mədəniyyətinin və musiqinin sinkretik vəhdəti özünü aydın büruzə verir.

**Tədqiqatın obyekti** Azərbaycan toy mərasim mədəniyyətinin tədqiqi, toy mərasimi kontekstində incəsənətin müxtəlif növlərinin qarşılıqlı əlaqəsinin, toy mərasimi ilə bağlı musiqi folklorunun tədqiqi məsələləri ilə bağlıdır.

**Tədqiqatın predmetini** toy mərasim mədəniyyətinin tərkib hissəsi olan musiqi folklorunun yeri və əhəmiyyətinin təhlili, onun özünəməxsusluğunun, yaranma xüsusiyyətlərinin, məzmununun, genetik-tipoloji əlamətlərinin, struktur qanunauyğunluqlarının araşdırılması təşkil edir.

**Tədqiqatın materialı.** Dissertasiyada Azərbaycan musiqişünaslarının, tarixçilərinin, etnoqraflarının, sənətşünaslarının əsərlərində verilən toy mərasim mədəniyyəti haqqında məlumatlara əsaslanırıq. Bundan əlavə, tədqiqat materialı kimi toy mərasimlərində incəsənətin müxtəlif növlərinin iştirakını təsdiqləyən etnoqrafik məlumatlardan istifadə edilmişdir. Eyni zamanda, toy mərasimi ilə bağlı musiqi folkloru nümunələrinin not yazıları - Azərbaycan xalq mahnılarında, rəqslərində, aşıq və muğam sənətində toy mərasimi ilə bağlı nümunələr tədqiqatın materialına çevrilmişdir.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Dissertasiyanın materiallarından Azərbaycan toy mərasim mədəniyyəti ilə bağlı musiqi folklorunun öyrənilməsinə yönəlmiş işlərdə istifadə etmək olar. Bizim tədqiqatımız etnoqraflar, tarixçilər, türkoloqlar üçün də maraqlı ola bilər, çünki bu araşdırmada bilavasitə Azərbaycan xalqının qədim kökləri və mərasim xüsusiyyətləri ilə bağlı məsələlərə toxunulur.

Dissertasiyanın əsas müddəaları Azərbaycan Milli Konservatoriyasının, Bakı Musiqi Akademiyasının və digər ali məktəblərin musiqi fakultələrində tədris olunan "Azərbaycan xalq yaradıcılığı", "Azərbaycan xalq musiqisinin əsasları", "Türk xalqlarının şifahi ənənəli musiqisi" və s. tarixi və nəzəri fənlərin tədrisində istifadə edilə bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslarındakı məruzələrində, yerli və xarici elmi məcmuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, 2 fəsil, 5 yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və

vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Toy mərasim mədəniyyətinin kompleks öyrənilməsi məsələləri"** adlanır. Bu fəsil iki bölmədən ibarətdir.

**1.1. "Azərbaycan mərasim mədəniyyətində toy mərasiminin yeri və tədqiqi istiqamətləri"** araşdırılır. Zəngin mədəniyyətə malik olan Azərbaycanda xalq musiqisi özünəxas inkişaf yolu keçmişdir. Azərbaycan musiqi folkloru həm özünəməxsus fərdi xüsusiyyətlərə, həm də bununla yanaşı, bütövlükdə mədəniyyətə xas olan universal cəhətlərə malikdir. Bu da etnomədəniyyətin və incəsənətin məzmun birliyini öyrənməyə əsas verir.

Toy mərasim folkloru – Azərbaycan xalqının, o cümlədən, türkdilli xalqların, ümumi genetik köklərinin, mərasim mədəniyyətinin inkişafının tipoloji qanunauyğunluqlarının üzə çıxarılmasına xidmət edən bir materialdır. Toy – ailə-nəsil mənası daşıyaraq, yenilənməni, həyatın davam etdirilməsini simvolizə edir, bu baxımdan, ilahi qüvvəyə inam, ayinlər və s. qabarıq surətdə özünü büruzə verir.

Toy mərasim mədəniyyətinə kompleks yanaşma - toyun adət-ənənələrinin hərtərəfli və bir-birilə qarşılıqlı əlaqədə öyrənilməsini nəzərdə tutur. Toy mərasimində xalqın dünyagörüşü, mental xüsusiyyətləri, adət-ənənələri, xalq yaradıcılığı növləri, musiqi (folklor, aşıq, muğam), ədəbiyyat (nağıl, dastan və bayatılar), tətbiqi sənət (xalçaçılıq, zərgərlik, misgərlik və s.), idman yarışları və xalq tamaşaları kimi sahələr, mətbəx mədəniyyəti bir-birilə vəhdətdə çıxış edir. Toy mərasiminin əsas məzmunlu özəyi nəsil artırmaq, rifah, həmrəylik yaratmaqdan ibarət idi. Toy mərasiminin ayinləri düşmən, bəd qüvvələrdən qorumalı idi.

Toy mərasiminin dramaturgiyası musiqi folkloru ilə sıx bağlıdır. Musiqi bu mərasimi hərəkətə gətirir. Toy mərasimi və burada çıxış edən musiqi folklorunun öyrənilməsi musiqi mədəniyyətinin bir neçə səviyyəsini araşdırmağa imkan verir. Musiqi toy mərasiminin estetik və emosional-psixoloji tələblərini təmin edir. Bu material xalq musiqi mədəniyyətinin sabit ənənə sırasına aiddir. Toy folklorunun müxtəlif növ və janrları mövcuddur. Toy mərasimi musiqi sənətinin məcmusunu – mahnı, instrumental-rəqs musiqisi, teatrlaşdırılmış xarakter daşıyan müxtəlif növ əyləncələri təmsil etdiyini desək kifayətdir. Toy mərasiminin musiqisi öz səs palitrası ilə seçilir.

Azərbaycan xalqının mərasim mədəniyyətini nəzərdən keçirərkən, tarixən özünəməxsus xüsusiyyətlərə malik toy mərasimlərin formalaşmasını qeyd edə bilərik. Biz onları fərqləndirmək və toy mərasimində kök salmış ənənəvi cəhətlərə və onların dəyişilməsinə diqqət yetirmək üçün şərti olaraq, "qədim toy" və "müasir toy" adlandırırıq. Bütün bu toy mərasim-

lərinin əsas fərqləndirici cəhəti tarixən cəmiyyətin inkişafı ilə paralel olaraq, insanların müsiqi zövqlərinin və tələbatının dəyişməsini əks etdirir.

Qədim toy – xalqın əsrlərdən bəri formalaşmış adət-ənənələrini, incəsənət növlərini, musiqi folklorunu özündə cəmləşdirən mərasimdir. Toyun mərhələləri - qızbəyənmə, elçilik, nişanlanma, bayramlıqlar, paltarkəsdi, gəlin yolasalma və gəlingətirdi, duvaqqapdı, toy məclisi, onların mahnı və rəqslərlə müşayiət olunması, toyun daxilində müxtəlif mərasimlərin – xalq tamaşaları, atçapma, zorxana yarışlarının keçirilməsi, aşıq məclisi, xanəndə məclisini özündə birləşdirirdi. Digər tərəfdən, toyla bağlı mətbəx mədəniyyəti, geyim, bəzək əşyaları, cehiz verilməsi (xalça-palaz toxunması, yorğan-döşək dəstinin hazırlanması), kəbin kəsmə, milli mentalitetlə bağlı cəhətlər və s. - bütün bunlar toy mərasim mədəniyyətinin tərkib hissələri kimi bu gün də saxlanılmışdır.

Qədim toy mərasiminin əsas göstəricisi onun əsas tərkib hissələrindən biri olan musiqi folklorunun – xalq mahnı və rəqslərinin məzmunu və tətbiqi xüsusiyyətləri ilə bağlıdır. Toyun mərhələlərini əks etdirən ənənəvi mahnı və rəqslərin ifası mərasimin keçirilməsinin ardıcıllığını müəyyənləşdirir. Onu da deməliyik ki, ənənəvi qədim mahnı və rəqslərin hal-hazırda toy mərasimindən kənarlaşmasını müşahidə edirik. Belə ki, bu nümunələr əsasında tərtib olunmuş tamaşalar yaranmış və foklor ansambllarının repertuarının əsasını təşkil etmişdir. Hal-hazırda qədim toy adət-ənənələri saxlanılsa da, ən çox dəyişikliyə məruz qalan cəhət musiqi folklorunun tətbiqi ilə bağlıdır.

Müasir Azərbaycan toyu – qədim Azərbaycan toy adət-ənənələrinin, milli koloritin  Avropadan gələn xüsusiyyətlərlə, tərtibat qaydaları ilə birləşməsindən meydana gələn bir mərasimdir. Başqa sözlə desək, milli toy adət-ənənələri, müəyyən dərəcədə avropalaşmış xarakter kəsb etmişdir. Bu da dövrün, zamanın tələbindən, zövqlərin dəyişməsindən, texnologiyaların inkişafından əmələ gələn bir xüsusiyyətdir. Buna baxmayaraq, müasir dövrdə cəmiyyətdə nə qədər avropaya meyllilik olsa da, toy adət-ənənələrinin milli koloriti qorunub saxlanılır, demək olar ki, bütün mərhələləri yeniləşmiş tərtibatda icra olunur. Burada özünəməxsus musiqi repertuarı – mahnı, rəqs, aşıq, muğam kimi milli musiqi ifaçılığı ilə yanaşı, müasir qərb estrada musiqisindən istifadə özünü göstərir.

Beləliklə, toy mərasimi mənəvi-maddi mədəniyyət nümunəsi kimi xalqımızın təfəkküründə və mərasim mədəniyyətində xüsusi əhəmiyyətə malikdir. Bu mərasimin tərkibi müxtəlif adət-ənənələrdən, incəsət növlərinin qarşılıqlı əlaqələrindən ibarətdir. Bunların hamısının özünəməxsus rolu var və onlar toy mərasimi kontekstində bir vahid funksiya daşıyır ki, bu da

mərasimin silsilə şəklində davam etdirilməsinə yönəldilir.

Toy mərasimi ilə bağlı qədim adət-ənənələrin təsvirinə Azərbaycan xalqının ən qədim yazılı ədəbi-abidəsi olan "Kitabi Dədə Qorqud" dastanında rast gəlinir. Dastanın mətnində bir neçə boyun süjet xəttində toy mərasiminin müxtəlif şəkildə təsvirləri öz əksini tapmışdır. "Aşıq Qərib", "Əsli və Kərəm", "Koroğlu" və digər aşıq dastanlarında toy adət-ənənələri aşığın sözlə, şeirlə, musiqi ilə təfsirində açıqlanır, dastanın süjet xəttinin xalqın təfəkkürü, həyat tərzi, adət-ənənələri ilə bağlılığı üzə çıxır.

Toy səhnələri, demək olar ki, bir çox Azərbaycan opera və balet əsərlərində, musiqili komediyalarda yer almışdır. Məsələn, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", Zülfüqar Hacıbəyovun "Aşıq Qərib", Reynqold Qliyerin "Şahsənəm", Müslüm Maqomayevin "Nərgiz", Ramiz Mustafayevin "Vaqif", Şəfiqə Axundovanın "Gəlin qayası", Firəngiz Əlizadənin "İntizar" və s. operalarda, Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində, Üzeyir Hacıbəylinin "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında, Süleyman Ələsgərovun "Ulduz" və s. musiqili komediyalarında elçilik, nişan, toy mərasimi müxtəlif cəhətdən, məzmundan irəli gələrək təsvir olunmuşdur. O cümlədən, kinofilmlərdə də biz toy adət-ənənələrinin müxtəlif cəhətlərdən nümayiş olunmasına rast gələ bilərik. Məsələn, müxtəlif illərdə "Azərbaycanfilm"in istehsalı olan "Ulduz", "Bəyin oğurlanması", "Əhməd haradadır?", "Torpaq, dəniz, od, səma", "İstintaq", "Bir cənub şəhərində", "Yuxu", "Qəzəlxan" və s. bədii filmlərdə, onlarla qısametrajlı və sənədli filmlərdə, çoxsaylı televiziya verilişlərində toy adət-ənənələrinin xalqın həyatının ayrılmaz bir hissəsi olması, özünəməxsus surətdə yaşadılması, hər bir bölgədə, hər bir dövrdə müxtəlif şəkillər alması, zahirən dəyişilməsi faktları ilə qarşılaşırıq.

Əlbəttə ki, dövrün tələbatından irəli gələrək, toyların keçirildiyi məkan, musiqi tərtibatı və s. xüsusi cəhətlər dəyişir. Lakin toy adət-ənənələrinin mənası, mahiyyəti, onların ardıcıllıqla bir-birini əvəz etməsi xalqın yaddaşında möhkəm kök salaraq, qorunur və icra olunur. Bu da xalqımızın mentaliteti ilə bağlı məsələlərdir. Cəmiyyət nə qədər inkişaf edib dəyişsə də, toy adət-ənənələri də zahiri dəyişikliklərə məruz qalır; bu zaman istisna hallar da olur, şəhər və ya kənd yerlərindən asılı olaraq, adətlərin qabarıq göstərilməsi və ya daha səthi təzahür etməsi də mümkündür, lakin toy mərasim mədəniyyətinin kökü çox dərin və qüvvətli olub, olduğu kimi qorunub saxlanılaraq, nəsildən-nəslə ötürülür.

**1.2. "Toy mərasimlərində ümumi və yerli xüsusiyyətlər"** öyrənilir.

Azərbaycan ərazisində ümumilikdə götürdükdə, toy mərasimi adət-ənənələri özündə cəmləşdirən, bir-birilə əlaqədar mərhələlərdən və tərkib hissələrindən ibarət mərasim kimi xatarkterizə olunur. Azərbaycanda toy adətləri - Azərbaycan mədəniyyətinin tərkib hissəsidir və əsrlər boyu Azərbaycanın müxtəlif tarixi bölgələrində inkişaf edərək vahid və zəngin bir mərasim sisteminə çevrilmişdir.

Toy mərasimlərində ümumi və yerli xüsusiyyətlər özünü göstərir, yəni toy mərasimim ümummədəni, ənənəvi cəhətləri ilə yanaşı, hər bir bölgədə bu mərasimin özünəməxsus yerli lokal xüsusiyyətləri meydana gəlmişdir. Toy mərasimlərində ümumi ənənəvi və yerli lokal xüsusiyyətlər - hər bir bölgənin, rayonun, bəzən kəndin özünəməxsus toy adət-ənənələri mövcuddur. Bölgələrdən asılı olaraq müəyyən fərqliliklər olsa da, ümumi toy prinsipləri çoxdur və bir çox elementlərdən ibarətdir. Azərbaycan milli toy adətləri bir-biri ilə bağlı olan mütəşəkkil sistemdir.

Azərbaycanın hər bir bölgəsində, hər bir rayonunda, bəzən hətta kəndində özünəməxsus toy adət-ənənələri mövcuddur və qədim dövrdən bu günə kimi qorunub saxlanmış, öz tərtibat xüsusiyyətlərini dəyişsə də, xalqın mənəviyyatı, mentaliteti və dünyagörüşü ilə bağlı dərin mahiyyətini dəyişməmişdir. Bu baxımdan toy mərasiminin kompleks şəkildə öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Belə ki, toy mərasimi hər bir ailədə konkret cəhətlərlə xarakterizə olunmaqla yanaşı, cəmiyyətdə, mühitdə özünəməxsus mənəvi, sosioloji, iqtisadi və s. amilləri özündə əks etdirən böyük bir mədəni hadisə kimi nəzərdən keçirilə bilər.

Azərbaycanın toy adət-ənənələri həm başqa xalqların adətlərinə təsir etmiş, həm də özü digər xalqların mədəniyyətindən müəyyən elementlər götürmüşdür. Toy adətlərinə zəmanənin də təsiri hiss edilməkdədir. Son dövrlərdə toyların bir qayda olaraq xüsusi şadlıq saraylarında təşkil edilməsi, bəy-gəlin rəqsinin hazırlanması, mələk libasında kiçik qızların bəy-gəlin ətrafında rəqs etməsi, toyda müasir rəqs üçün vaxt ayrılması, toyun sonunda gəlinin arxaya gül dəstəsi atması, “bal ayı”nın keçirilməsi də bu qəbildəndir. Bütün bunlar XIX əsrdə digər xalqların mədəniyyətlərindən götürülmüşdür.

Məlumdur ki, toy mərasimində adət-ənənələrdən irəli gələrək, insanların müəyyən davranış və hərəkətləri özünü göstərir. Bu hərəkətlər ardıcıl olaraq, mərasimin mərhələlərini əmələ gətirməklə, insanların deyimlərini, dialoqlarını, ədəbi və musiqi folklor nümunələrinin səsləndirilməsini, yarışların keçirilməsini və s. şərtləndirir.

Toy mərasiminin mərhələləri qız bəyənmə, qızgördü, xəbər göndərmə, elçilik, nişan mərasimi, xınayaxdı, gəlin gətirdi, toy məclisindən ibarətdir.

Qədim dövrdən bu günə kimi "toy" dedikdə, şənlik məclisi, qonaqlıq, çalıb-oynamaq nəzərdə tutulur. Bütün bu mərhələlərin özünəməxsus adları olduğu kimi, insanların da müəyyən davranışları, hərəkətləri, istifadə etdiyi ənənəvi sözlər, ifadələr, məsəllər var. Qeyd etmək lazımdır ki, bütün bölgələrdə toy mərasimi göstərilən mərhələlərdən ibarət olsa da, hər bölgənin yerli mədəniyyəti və adət-ənənələrinə görə toy mərasiminin mərhələləri fərqli adlarla ifadə olunur. Davranış və danışıq tərzində də müxtəliflik özünü göstərir.

Məsələn, qədim el adətlərinə görə qızı ilk dəfə görən və evlənmək yaşında olan oğlan, qızı bəyənirsə, yaxın adamlarına bunu xəbər eləyir. Qızın yerini-yurdunu, ailəsinin kimliyini öyrənib xəbər tuturlar. Ailəsi-kökü oğlan tərəfi razı salırsa oğlan qızla danışmağa və özü haqqında onda müsbət rəy yaratmağa çalışır. Sonra qızın valideynlərinin fikri öyrənilir. Bunun üçün qızın yaxın adamlarına – xalasına, bibisinə, anasına xəbər göndərir. Onların fikri öyrənilir.

Ayrı-ayrı bölgələrdə bu elçilikqabağı tədbirə "qızabaxdı – qızsarafla-ma", "qızgörümü - qızgörümcəyi", "görümcək - görəli", "görücügetmə - görücügəzmə", "didar", "bəlləmə" və s. də deyirlər.

Adətə görə, əvvəl oğul anası və onun qohumlarından bir qadın ilk elçiliyə gedirlər. Ümumi razılıq əldə olunduqdan sonra nişan mərasiminin məsələləri həll edilər və böyük elçiliyə hazırlıq başlanır. Qadınlar razılığa gəldikdən sonra, oğlan və qız evinin ailə başçıları görüşürlər.

Elçilik qaydalarında da adət-ənənələr gözlənilir. İnanclara və adətlərə görə elçiliyə gecə getməzlər. Baxmayaraq ki, müasir şəhərlərdə bu adət unudulub. Elçilərin qarşısına qoyulan çay razılıq alınmamış içilməz. Elçilikdə belə deyirlər: "Qız ağacı, qoz ağacı, hər gələn bir daş atar", "Qız yükü, duz yükü", "Qız qapısı, şah qapısı", "Allah xoşbəxt eləsin".

Elçilikdən bir müddət sonra hər iki tərəfin təyin etdiyi vaxtda qız evinə nişan gəlir. Buna oğlan tərəf çoxdan hazırlaşmış olur. Nişanda qız üçün lazım olan paltarlar, ziynət əşyaları, şirniyyat və meyvə xonçaları gətirirlər. Nişanda qız üçün zərif naxışlı qırmızı yaylıq gətirilir. Bu nişan mərasiminin ən önəmli atributlarından biridir.

Böyük nişan mərasimi – nişantaxdı zamanı oğlan evindən gətirilib ərə veriləcək qızın sol əlinin adsız barmağına nişan üzüyü taxılır, həmçinin, bəxt güzgüsü adlanan güzgü gətirilir. Bu güzgü ayrı-ayrı yerlərdə "bəxt aynası", "gəlinlik güzgüsü", "nişan güzgüsü", "tale güzgüsü" də adlanır.

Toyun əsas atributlarından biri içində ayrı-ayrılıqda pal-paltar, zinət əşyaları  və şirniyyat yerləşən bağlama – xonça gətirmədir. Müxtəlif yer-

lərdə xonçaları adət-ənənələrə uyğun olaraq belə adlandırırlar: “ağ xonça”, “bayram xonçası”, “bəy xonçası”, “bəzək xonçası”, “çərşənbə xonçası”, “gəlin xonçası”, “qənd xonçası”, “xızır xonçası”, “xınayaxdı xonçası”, “xuşgəbar xonçası”, “nişan xonçası”, “novbahar xonçası”, “nübar xonçası”, “sərpayı xonçası”, “şirinxonça - şirniqabağı xonça - şirni xonçası”, “toy xonçası”, “üzük xonçası”, “yeddilövün xonçası”, “yengə xonçası” və s.

Qeyd etmək lazımdır ki, toy adət-ənənələrindən qızgördü, elçilik, nişantaxma mərasimləri qədim dövrdən bu günə kimi çox az dəyişikliyə məruz qalmışdır. Bu mərhələlərdə, müəyyən dərəcədə qız bəyənmə istisna olmaqla, insanların davranışı, danışığındakı ənənəvi ifadələr, inancları ilə bağlı hərəkətləri, istifadə olunan atributlar saxlanılmışdır. Yalnız bölgədən asılı olaraq, deyim tərzinin dəyişdiyini müşahidə edirik. Eyni zamanda, dövrün dəyişməsi ilə əlaqədar olaraq, insanların həyat tərzində yeni cəhətlər, mərasimin yeni üslubda tərtibatı özünü göstərsə də, nişantaxma mərasimində istifadə olunan üzük, baş örtüyü, güzgü, xonça kimi atributlar, qırmızı və ağ rəngə üstünlük verilməsi bu günə kimi öz mahiyyətini qoruyub saxlamışdır.

Toyun digər mərhələlərində də bütün bunları izləyirik. Lakin musiqi tərtibatına gəlincə, qeyd etməliyik ki, toyun bütün mərhələlərində musiqidən istifadə olunmur. Bu baxımdan xüsusilə xınayaxdı, gəlinaparma və toy məclisi özünəməxsus musiqi tərtibatına malikdir. Həmin mərasimlərdə ənənəvi mahnı və rəqslərin səsləndirilməsi qədim dövrlərdən formalaşmış adətdir. Müasir dövrdə toy mərasimində bu adət saxlanılmaqla yeni cizgilərlə kəsb etmişdir.

Xınayaxdı mərasimi əsrlər boyu Azərbaycanın müxtəlif tarixi bölgələrində inkişaf edərək vahid və zəngin bir adət sisteminə çevrilmişdir. Qızın ər evinə köçməsinə bir gün qalmış bu mərasim baş tutur. Qızlar bir otağa yığışır və qızın yengəsi islanmış xınanı götürüb oynamağa başlayır. Sonra biri dolu, biri də boş olan qabı gətirib oğlan adamının qabağına qoyurlar. Onlar isə boş qabın içərisinə pul atıb, xınanı götürürlər. Sonra xınanı oynada-oynada qızın yanına gətirərlər. Onun əllərinə, ayaqlarına xına qoyular. Sonrada məclisdəkilərin qabağına gətirilər. Hamı xına qoyub, nəmər salar. Qızın xınayaxdısı olan gün bəydə öz dost-tanışları ilə şənlənirlər.

Lənkəran toylarında qız toyu ərəfəsində keçirilən Xınayaxdı mərasimində bir sıra mahnılar ifa olunur; gəlinin ətrafına toplanmış qız-gəlinlər “Xınayaxdı”, “Əllərə xına yaxarlar”, “Aman nənə” kimi mahnıları oxuyardılar.

Xınayaxdıda da, qız toyunda da mahnılar çox vaxt “Tək qaval” adlanan üsulla oxunardı. Qızlar, qadınlar dövrə vurub əyləşər, onlardan biri əlində

qaval ortada oturarmış. qaval çala-çala mahnıların bəndini misra-misra ifa edərdi. Oxunan mahnıların nəqarətini dövrə vuranlar xor şəklində oxuyarlar.

Bəzi yerlərdə isə xınayaxdıda nişanlı qızı ər evinə yola salmazdan əvvəl onun atası evində "Gəlinın taxta çıxarılması" ayini keçirilir, bu da mənşəcə çox qədim tarixə malik olan bir ayindir. Bəzi yerlərdə bu ayinə "gəlin taxta qalxdı", "duvaqlama – duvaqtoyu", "üzə duvaq vermə" də deyirlər. Bəzi yerlərdə gəlinin tərifi də bu adı daşıyır. Bəzi yerlərdə buna "gəlinbəzəndi", "bəzəkvurdu", "gəlinbaşı bağlama - gəlinbaşı bəzəmə / gəlindonatma" da deyirlər.

Naxçıvanda xınayaxdı məclislərində qız evində cavan qız-gəlinlər mərasimə şənlik qatmaq, onu daha da əyləncəli etmək üçün haxıştalar deyirlər. Haxıştalar 4 sətirdəın ibarət olur və hər sətirin sonunda xor şəklində "haxışta" deyilir. Həmçinin, "Haxışta" adlı halay sayağı rəqs ifa edirlər. 8-12 iştirakçıdan ibarət olan iki dəstə cərgə ilə qabaq-qabağa dayanıb əl-ələ tuturlar. Sonra ifaçılardan biri sonu "haxışda" ("hakuşka") kəlməsilə bitən bir bayatı oxuyur, o birilər bu sözü təkrar edərək əl çala-çala, oynaya-oynaya qarşı cərgəyə, oradan da əks cərgəyə keçirlər.

Toy mərasiminin tərkib hissəsi olan "gəlin aparma"nın özünəməxsus adət-ənənələri vardır. Bu, oğlanın toy günündə keçirilir. Qız toyundan sonra (çox hallarda bir həftə sonra) oğlan evində toy başlanır. Səhər tezdən mağarı qurub, bəzəyəndən sonra gəlini gətirməyə hazırlaşırlar. Bütün miniklər bəzənir. Onlara qırmızı lent, kəlağayı bağlayırlar. Azərbaycan xalqının ən qədim havası olan "Vağzalı"nın sədaları altında oğlan evi qız evinə gəlir. Gəlinin başına duvaq atarlar. Həyətdə iri tonqal qalayıb ətrafında gəlini 3 dəfə fırladırlar ki, getdiyi ev işıqlı, ocağı isti olsun.

Mərasimin mərkəzində toy şənliyi durur. Toyun başlanmasını musiqiçilərin çalğısı bildirirdi. Oğlan toyunda mağarda ayrıca üstü şirniyyatla bəzənmiş stol qoyulurdu. Stolun üstündə güzgü də olardı. Bəyin yanında sağdışı ilə soldışı otururdu. Oğul anası onlara hədiyyə verərdi. Tərifdən sonra bəyi öz toyunda oynadardılar. İnanca görə, bəy və ya gəlin öz toyunda oynayanda həm bolluq, həm də ucuzluq olardı.

Toy şənliyinin davamiyyəti bir neçə gün (2-7 gün) ola bilərdi. Adətən şəhərdə bu 7 günədək davam edirdi. Belə uzunmüddətli toylara sazəndələr, aşıqlar, zurnaçılar dəstəsi dəvət olunurdu. Əgər şəhər toylarında sazəndələrin ifasında klassik muğamlara üstünlük verilirdisə, kənd yerlərində aşıqların çıxışı daha çox arzuolunan idi. Bunu da olduqca təbii hadisə kimi qiymətləndirmək olar. Belə ki, məhz aşıq sənəti özündə xalqın etnik tərkibinə xas olan cəhətləri daha dolğun əks etdirmiş və cəmiyyətdə baş verən

bir çox hadisələrə münasibət bildirərək aparıcı rol oynamışdır. Aşıq yaradıcılığı yüksək peşəkarlığı və özündə poetik söz, musiqi, instrumental ifaçılığı ideal şəkildə vəhdətdə ustadcasına birləşdirmək bacarığına görə də toy məclislərinin istəkli iştirakçısı idi. Hər iki halda toyun musiqi tərtibatı baxımından maraqlı və yüksək səviyyədə keçirilməsi istər xanəndə, istərsə də aşığın professional hazırlığından asılı idi.

Mərasim tamaşaları içərisində qız-gəlin oyun-tamaşaları əsasən toy və digər mərasim şənlikləri ilə bağlı olub, özündə söz, deyişmə, oxuma, rəqs, tamaşa ünsürlərini toplayaraq, yalnız qız və qadınların iştirak etdiyi məclislərdə icra olunur. Bu tamaşaların əsas mövzusunu Azərbaycan qadınının real məişət həyatını əks etdirən səhnəciklər, yeniyetmə qızların ərə getmək arzusu ilə icra etdikləri müəyyən ayin oyunları, toy şənlikləri zamanı göstərilən məzəli səhnələr təşkil edir. Qız-gəlin tamaşaları içərisində "Şahbəzəmə", "Nəmçilər" ("Gəlin-gəlin"), "Mərdgiran", "Kəpənək", "Qurd-qoyun", "Qıtqılıda", "Vəsfi-hal", "Alaylar" və s. tamaşa elementləri ilə zəngin mərasim-ayin oyunları xüsusilə geniş yayılmışdır.

Bir neçə gün davam edən toy mərasimlərində ifa olunan "Xan-xan", "Mütriblərin rəqsi", "Gəlinlə qayınananın deyişməsi" və s. epizodlar, burada oyun və tamaşa ünsürlərinin müstəqil əhəmiyyət kəsb etdiyini göstərir. Bütün bu oyun-tamaşalar olduqca zəngin və rəngarəng instrumental musiqi fonunda cərəyan edir. Azərbaycan toy mərasimi əsil musiqili tamaşa xarakteri daşıyan böyük bir xalq məişət bayramına çevrilir.

Toy mərasimində musiqi əsas hərəkətverici qüvvə sayıla bilər. Qədim zamanlardan toyun ənənəvi mərhələlərinin araşdırılmasından göründüyü kimi, toylarda musiqi bir neçə növdə təzahür edir. Bunları belə xarakterizə edə bilərik:

Birincisi, qadınların oxuduğu mahnılar – bir zərb alətinin müşayiətilə: bura xınayaxdı mərasimində oxunan ənənəvi toy mahnılarını, halayları və bir sıra lirik mahnı-deyişmələri aid etmək olar.

İkincisi, instrumental musiqi nümunələridir ki, gəlin aparma mərasimini, qız toyunu və oğlan toyunu, həmçinin keçirilən idman yarışlarını və xalq tamaşalarını müşayiət edir. İnstrumental musiqini ifa edən ansambllar tərkibinə görə fərqlənir. Əsasən açıq havada keçirilən mərasimlərdə nəfəs və zərb alətlərindən ibarət ansambl - zurnaçılar dəstəsi çıxış edir. Bu ansambl müxtəlif məzmunlu instrumental rəqs musiqisini – toy, yarışma, yallı və s. oyun havalarını ifa edir, gənclərin toyda rəqsini müşayiət edir.

Qapalı məkanlarda qadınların məclisində (xüsusilə qız toyunda) qarmon və zərb alətlərindən, bəzən simli alətlərdən ibarət ansambl iştirak edir.

Üçüncüsü, aşıq məclisinin keçirilməsidir ki, toy mərasimində bunun xüsusi yeri vardır. Bölgədən asılı olaraq, toyda iştirak aşıq və onu müşayiət edən ansambl (iki balaban və nağara) ayrıca məclis qurub dastan danışır, öz çıxışı zamanı bəyi təbrik edir. Aşıq dastanı isə ənənəvi aşıq yaradıcılığının məhsuludur. Bəzi hallarda toy məclisində də çıxış edir.

Dördüncüsü, xanəndə və sazəndə dəstəsinin toyda çıxışıdır ki, bu da ənənəvi şəkildə muğam məclisi ilə bağlıdır. Xanəndə - tar və kamança ifaçısının müşayiəti ilə muğam dəstgahları ifa edir. Yeri gəldikdə, bəy tərifi oxuyur.

Beləliklə, toy mərasiminin ayrılmaz tərkib hissələri kimi musiqi ansambllarının çıxışları toy mərasiminin musiqi tərtibatını təşkil edir və mərasimi zənginləşdirir.

**Dissertasiyanın II fəsli "Toy mərasimlərinin musiqi tərtibatının əsas cəhətləri"** adlanır. Bu fəsil üç bölmədən ibarətdir.

**2.1. "Toy mərasim mahnılarının janr və musiqi dilinin xüsusiyyətləri"** tədqiq olunur. Toy mərasimində musiqi olduqca geniş şəkildə tətbiq olunur. Toy mərasimi ilə bağlı mahnılarda xalq musiqisinin əlamətdar xüsusiyyətləri təcəssüm olunmuşdur. Toy mahnılarına gəlinin anası, həmçinin qaynanası, elçilər tərəfindən ifa edilən xeyir-dualar; bəy və gəlinin qohumları və dostlarının oxuduqları təbrik mahnılar aiddir, xüsusilə "xınayaxdı"da oxunan mahnılar mühüm əhəmiyyət kəsb edir.

Toy mərasiminin mərhələli keçməsi burada ifa olunan mahnıların da fərqli, müxtəlif xarakter daşımasını şərtləndirir. Toy mərasim mahnılarının geniş təhlilini aparan musiqişünas S.Fərhadova onların növlərinə görə aşağıdakı təsnifatını belə verir:

"a) gəlinin anasının oxuduğu və valideynlərin məhəbbətini və xeyirduasını əks etdirən mahnılar; toy ərəfəsində və gəlinin yeni ailəyə daxil olduğu zaman anası, qaynanası və ya yengə tərəfindən oxunan öyüd-nəsihət mahnıları.

b) toyun ən müxtəlif anlarında bəy və gəlinin dostları və qohumlarının oxuduğu təbrik mahnıları; gəlinin oğlan tərəfindən qarşılandığı zaman oxunan mahnı-salamlar.

c) bəy və gəlinin şöhrətini, onların qohumlarını mədh edən təfirləmə-mahnılar və gəlinin gözəlliyini vəsf edən mahnılar.

d) bəy və gəlinin qohumlarının görüşü zamanı və gəlinin ər evinə yola salınarkən oxunan məzəli-oyun mahnılar.

e) ayin hadisələrilə bağlı mahnılar"[23].

---

[23] Фархадова С.Т. Обрядовая музыка Азербайджана (на примере траурных песнопений и свадебных песен). Б.: Элм, 1991. 130 с.

Toy mərasim mahnıları əsasən Fikrət Əmirovun "Azərbaycan xalq mahnıları" məcmuəsinin 2 cildində nəşr olunmuş not yazılarında təmsil olunmuşdur: "Xoş gəldin", "Xoş getdin", "Ay yol açın, gəlin gəlir", "Ay mübarək", "Aparmağa gəlmişik", "Xınayaxdı havası", "Toyun mübarək olsun", "Almanı alma gəlin", "Əylən, gəlin", "Ay yol açın gəlin gəlir", "Almanı alma gəlin". Ə.İsazadə və N.Məmmədovun "Azərbaycan xalq mahnıları və oyun havaları" məcmuəsində (1984) "Haxışta" - bu janrın yazıya alınmış yeganə nümunəsidir.Həmçinin, F.Xalıqzadənin not yazısında "Ağa diləyə gəlmişik", "Yar-yar", "Tonqay məlik" və s. nümunələri qeyd etmək olar.

Musiqişünas S.Tağıyeva "Türk xalqlarının mərasim mədəniyyəti və musiqi folkloru" kitabında Azərbaycan xalq mahnıları irsində toy mərasimi ilə bağlı nümunələri tədqiq edərək, onların musiqi dilinin məqam-intonasiya əsasını göstərmişdir. Toy mərasim mahnılarının musiqi dilinin təhlili nəticəsində xalq mahnılarının məqam əsası, melodik xüsusiyyətləri, məqam və melodikanın qarşılıqlı təsiri, mətnlə musiqinin əlaqəsi, forma quruluşu ilə əlaqəli şəkildə xarakterizə etməyə imkan verir.

Toy mərasimi ilə bağlı xalq mahnılarının araşdırılmasından belə nəticəyə gəlmək olur ki, bu tip mahnıların mövzusu (adı) baxımından toyun müxtəlif mərhələlərini əks etdirir: "Xınayaxdı havası", "Aparmağa gəlmişik", "Ay mübarək", "Ay yol açın, gəlin gəlir", "Toyun mübarək olsun" və s.

Toy mərasim mahnıları məzmununa görə əsasən nəsihət xarakterli və ya təsviri xarakterli olur. Nəsihət mahnıları ananın və ya qohumları gəlin gedən qıza davranış qaydaları, bəyin qohumlarına münasibəti haqqında öyüd-nəsihətləri öz əksini tapır: "Xoş getdin", "Xoş gəldin", "Almanı alma gəlin", "Əylən, gəlin" və s.

Təsviri xarakterli mahnılarda həm toyun ayrı-ayrı mərhələləri – xınayaxdı, gəlin aparma və s.: "Xınayaxdı havası", "Gəlmişik", "Nar, nar, nargilə", "Dur oyna", "Oyna, yar", həm də gəlinin gözəllilyi ("Ağ əlli can", "Su gəldi") və bəyin igidliyi ("Boyuna qurban", "Toyun mübarək olsun") və s. bu kimi cəhətlər təsvir olunur.

Toyun müəyyən adət-ənənələrini əks etdirən mərasim mahnıları ilə yanaşı, lirik və yumorlu mahnı janrına aid edilən nümunələrin də məzmununda toyla bağlı cəhətlərə rast gəlinir: "Neylərsən", "Ulduz ay aman" və s. Bu mahnılar solo, dialoq formasında, həmçinin, xorla oxunur, ifa zamanı bəzən rəqs hərəkətlərilə də müşayiət olunur.

Beləliklə, toy mərasimi milli folklorun bütün rəngarəngliyini özündə əks etdirir. Onun tərkib hissələri – toyun ardıcıl icra olunan mərhələlərindən, adət-ənənələrdən ibarətdir. Bu mərhələlərdən hər biri özünəməxsus hərəkət,

davranış, dialoq, şeir, mahnı, rəqs və s. tərtibat xüsusiyyətlərinə malikdir.

**2.2. "Toy mərasimində instrumental rəqs musiqisinin xarakterik cəhətləri"** araşdırılır. Azərbaycan musiqişünaslığında xalq rəqslərinə dair Üzeyir Hacıbəylinin, Məmmədsaleh İsmayılovun, Əfrasiyab Bədəlbəylinin, Bayram Hüseynlinin və b. musiqişünasların dəyərli fikirləri vardır. Bu tədqiqatlarda toy mərasiminə daxil olunan rəqslər də xarakterizə olunmuşdur.

B.Hüseynlinin təsnifatında xalq rəqs musiqisi mövzu əsasına görə altı böyük qrupa bölünür: 1) ənənəvi mərasim rəqsləri; 2) məişət rəqsləri; 3) zəhmət rəqsləri; 4) qəhrəmani, hərbi və idman oyun-rəqsləri; 5) Yallı və halay oyun-rəqsləri; 6) müxtəlif mövzulu xalq rəqsləri[24].

B.Hüseynlinin verdiyi təsnifatda ənənəvi mərasim rəqsləri qrupunda xalq rəqs yaradıcılığının böyük bir hissəsini toy mərasiminin müxtəlif anları ilə əlaqədar olan ənənəvi toy rəqsləri təşkil edir. Bəy, adətən cəsurluğu, cəldliyi tərənnüm edən şıdırğı rəqsləri "Qazağı", "Şalaxo", "Bağdaduru" və başqalarını ifa edir, öz xoreoqrafik məharətini nümayiş etdirirdi. Gəlinlər çox vaxt geniş yayılmış "Uzundərə" lirik rəqslərini ifa edirdilər. "Qızılgül", "Yüz bir", "Lalə" və başqa rəqs melodiyaları da gəlinlərin rəqsini müşayiət edir. Bəy və gəlinin yaşlı valideynlərinin rəqsi üçün "Darçını", "Mirzəyi" rəqs melodiyaları xarakterikdir. Toy şənliyində ənənəvi tamaşalar, oyunlar və idman yarışları, açıq havada zurnaçı dəstəsinin ifa etdiyi "Pəhləvanı", "Cəngi" rəqs melodiyaları ilə müşayiət olunur.

Toy mərasimində geniş tətbiq olunan xalq rəqslərinin təhlili göstərir ki, bunlar müxtəlif xarakterli rəqslər olub, məzmunu baxımından heç də həmişə toyla bağlı deyil. Bunların toy mərasimində tətbiqi sırf emosional məzmunundan irəli gəlir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, göstərilən təsnifatdakı bəndlərin hər birinə aid rəqslərdən toy mərasiminin müxtəlif mərhələlərində istifadə olunur. Məsələn, ənənəvi toy mərasim rəqsləri ilə yanaşı, məişət rəqsləri, yallı və halay mahnı-rəqsləri, qərhəmani, idman oyun-rəqsləri, müxtəlif mövzulu xalq rəqsləri bu qəbildəndir.

Lakin Azərbaycan xalq rəqs yaradıcılığında bilavasitə toy adətləri ilə bağlı instrumental havalar vardır və tədqiqatlarda, eləcə də xalq rəqslərinin not yazılarını əhatə edən məcmuələrdə bunlara rast gəlirik.

Adında toy mərasiminin müəyyən bir mərhələsini əks etdirən rəqs havaları arasında "Gəlin qarşılama" melodiyasını göstərə bilərik. Qara Qarayev tərəfindən nota yazılmış bu rəqs melodiyası rus musiqişünas-alimi

---

[24] Hüseynli B.X. Azərbaycan xalq rəqs musiqisinin klassifikasiyası. // Искусство Азербайджана. Вып. XII. Изд. АН Азерб.ССР. Б.: 1968. с. 67-94.

V.Belyayevin Azərbaycan musiqi mədəniyyətinə həsr olunmuş tədqiqatlarında öz əksini tapmışdır[25].

Səid Rüstəmovun "Azərbaycan rəqs havaları" (1937) məcmuəsində verilən rəqslər arasında elə nümunələr də var ki, onların adı tədqiqatlarda toy mərasimi ilə bağlı deyil və müxtəlif mövzulu rəqslər kimi göstərilib. Lakin bu rəqslər xalq arasında toy mərasimi ilə bağlı geniş yayılmışdır, "Vağzalı" rəqsi bunun ən bariz nümunəsidir.

Mövzusuna görə toyla bağlı olan rəqs melodiyaları sırasına "Bəxtəvəri", "Qəşəngi" rəqslərini də aid edə bilərik, belə ki, bu rəqslərin toy əhval-ruhiyyəsi ilə birbaşa əlaqədar olduğu görünür. Bundan əlavə, "Tərəkəmə", "İnnabı", "Cığcığa" kimi rəqslər də toy mərasimlərində çox səsləndirilir.

1951-ci ildə çap olunmuş Tofiq Quliyev, Zakir Bağırov və Məmmədsaleh İsmayılovun not yazılarından ibarət "Azərbaycan xalq rəqsləri" məcmuəsinə daxil olan rəqslər arasında da toy mərasimində istifadə olunan "Atlanma", "Ağırlama", "Diringi", "Oynamaq ovşarısı", "Cıdır" kimi instrumental melodiyalar bu qəbildəndir. Bu melodiyalar gəlin gətirmə zamanı zurnaçılar dəstəsi tərəfindən çalınır.

S.Abdullayevanın "Азербайджанская инструментальная музыка" (под ред. В.Петрова). М., Музыка, 1990) məcmuəsində toy mərasimi ilə bağlı olan – "Atlanma" və "Gəlin havası" adlı instrumental rəqs melodiyaları verilmişdir. Bu rəqs melodiyalarının adı toy mərasiminin əsas mərhələlərindən biri olan gəlin gətirməni özündə əks etdirir.

Ə.İsazadə və N.Məmmədovun "Xalq mahnıları və oyun havaları" (1975) məcmuəsində "Gəlin havası" və "Xonça gələndə" rəqsləri toy mərasimi ilə bağlı adlar daşıyır.

2011-ci ildə çap olunmuş "Azərbaycan xalq rəqs musiqisi" (Arzu Quliyeva və Malik Quliyev) məcmuəsindəki rəqslər sırasında toy mərasimi ilə bağlı bir sıra rəqslər diqqəti cəlb edir, bunlar – adları bilavasitə toyla və şadlıq əhval-ruhiyyəsi ilə əlaqədar olan instrumental melodiyalardır: "Qədim toy", "Toy", "Şadlıq", "Naz eləmə", "Bəxtəvəri", "Xoşbəxtlik". Qeyd etmək lazımdır ki, adı çəkilən nümunələr digər məcmuələrdən fərqli olaraq, ilk dəfə bu nəşrdə təqdim olunmuşdur. Məcmuədə, həmçinin, tədqiqatlarda tor mərasim rəqsləri kimi adı çəkilən rəqslər də öz əksini tapmışdır: "Mirzəyi", "Yüzbir", "Lalə", "Qazağı", "Cəngi" rəqs melodiyaları

---

[25] Беляев В.М. О музыкальном фольклоре и древней письменности. М.: Сов.композитор, 1971. 233 с. Беляев В.М. Азербайджанская музыкальная культура. В кн. Очерки по истории музыки народов СССР. Вып.2. М.: Музгиз, 1963. с. 5-81.

bu qəbildəndir. Göstərilən nümunələrin variantlarına əvvəlki nəşrlərdə də rast gəlirik.

Biz nəzərdən keçirdiyimiz tədqiqatlar və məcmuələr əsasında toy mərasimi ilə bağlı rəqsləri üç qrupa ayırmağı məqsədəuyğun hesab edirik: 1. Toy mərasiminin ənənəvi rəmzləri və mərhələləri ilə bağlı rəqslər – "Toy", "Qədim toy", "Gəlin havası", "Xonça gələndə", "Vağzalı", "Atlanma", "Hağışta" və s.; 2. Toy mərasiminin emosional əhval-ruhiyyəsini əks etdirən rəqslər – "Bəxtəvəri", "Xoşbəxtlik", "Şadlıq", "Naz eləmə", "Naznazı" və s.; 3. Toy mərasiminin ayrı-ayrı mərhələlərində tətbiq olunan müxtəlif adlı və xarakterli ənənəvi rəqslər: toy şənliyində bəyin və cavan oğlanların rəqsləri - "Qazağı", "Şalaxo", "Bağdaduru"; gəlinlərin rəqsi - "Qızıl gül", "Yüz bir", "Lalə", "Uzundərə"; bəy və gəlinin yaşlı valideynlərinin rəqsi "Darçını", "Mirzəyi" və s. rəqs melodiyaları ilə, həmçinin, toy şənliyində ənənəvi tamaşalar, oyunlar və idman yarışları "Pəhləvanı", "Cəngi" kimi rəqs melodiyaları ilə müşayiət olunur.

**2.3. "Halay və yallı janrları – toy mərasim musiqisinin tərkib hissəsi kimi"** adlanır. Musiqi folklorunun özünəməxsus janrlarından olan halay və yallı janrları toy mərasiminin mərhələlərində tətbiqinə və onların musiqi dilinin xüsusiyyətlərinə görə diqqətəlayiqdir. Halayların xalq mahnı yaradıcılığındakı toy mərasim mahnıları ilə bağlı məzmun oxşarlığı özünü göstərir.

1954-1956-cı illərdə Bülbülün redaktəsi ilə çap olunmuş "Azərbaycan xalq mahnıları məcmuəsində Fikrət Əmirova məxsus not yazıları arasında ənənəvi toy mahnıları ilə yanaşı, halaylar da yer almışdır. Not yazılarında bəzən halay nümunəsi konkret olaraq göstərilir: məsələn, "Halay", "Əl eylər", "Dad əlindən", "Aman, Mələk, hay" və s. Bəzi hallarda isə mahnıların məzmununa və quruluşuna görə onların halay olduğu aydınlaşır: "Ey lalla", "Hay, hey", "Qız kəmərin bağlama", "Hay lo-lo" və s. Bir sıra müxtəlif məzmunlu mahnılar da halay tipli nümunələr hesab oluna bilər: məsələn, əmək mövzusunda "Həsiri basma", toy mərasimi ilə bağlı "Oyna yar", "Ay toz götürün", lirik məhəbbət mövzulu "Gəl al məni, yar-yar" və s. Bu mahnılar çox qədim olduğundan, melodika və quruluş baxımından sadədir.

Bayram Hüseynlinin nota saldığı "Azərbaycan xalq rəqs melodiyaları" (2 dəftər, 1965-1966) məcmuələrindən birincisinə qədim zamanlardan Azərbaycanda geniş yayılmış "Yallı" rəqsləri (25 melodiya), ikincisinə cənub rayonlarından - Lənkəran, Masallı, Lerik, Astara və b. yerlərdən toplanılmış halay rəqsləri (15 melodiya) daxildir. Məcmuədə toyla bağlı olan halay rəqs-mahnıları bunlardır: "Xonçaya düzdüm noğulu, badamı", "Nanay-nanay", "Oturun qızlar, oturun ey", "Verin bizim gəlini", "A bivəfa

dağlar", "Dəst eylər, gül eylər", "Dad qaragöz əlindən", "Vallah, gözəl sizdədi", "Mələk-mələk", "Yar üzü xallı ceyran".

Ə.İsazadə və N.Məmmədovun "Xalq mahnıları və oyun havaları" (1975) məcmuəsində Lənkəran zonasında yazıya alınmış məzmunu toy mərasimi ilə bağlı halay nümunələri öz əksini tapmışdır: "Yaxşı bəzək vurun bizim gəlilnə", "Xoş gəldin sən bizə", "Göndərin hamama, göndərin", "Bacım, toyun mübarək", "Əllərə xına yaxarlar", "Qardaşımın toy qoyunu", "Bəyin tərifi", "Mübarək, ay mübarək", "Yar-yar", "Ay yara xoş gəldin deyin" bu qəbildəndir.

Halay janrının əsas cəhəti qadınlardan ibarət iki dəstənin unison xorla dialoq formasında oxunmasından ibarətdir. Bu zaman, adətən, bir musiqi cümləsi əvvəlcə birinci qrup, sonra ikinci qrup tərəfindən təkrarlanır və yaxud da solistin ifasında səsləndirilən musiqi cümləsinə xor nəqəratvari sözlərlə cavab verir. Oxuma bir zərb alətinin müşayiətilə əl çalıb rəqs etməsi ilə müşayiət olunur. Burada musiqi və poetik məzmununun vəhdəti önəmlidir. Bu baxımdan halayların xalq mahnı yaradıcılığındakı toy mərasim mahnıları ilə bağlı məzmun oxşarlığı önə çıxır. Halaylarda mətn və musiqi məzmununun əlaqəsi, eyni zamanda, onların musiqi aləti və rəqs hərəkətləri ilə müşayiət olunmasını da şərtləndirir. Bu da halayların mahnı-rəqs kimi ortaq səciyyəli janr xüsusiyyətlərini üzə çıxarır.

Halay və yallılar ifaçılıq baxımından kütləvi xarakterli musiqi nümunələridir. Halaylarda sözə üstünlük verilməsi və rəqs hərəkətlərinin müşayiətedici olması onların mahnı-rəqs kimi xarakterizə olunmasını şərtləndirir. Yallılarda isə instrumental melodiyaya əsaslanan rəqs hərəkətləri önə çıxır, yallı melodiyalarına söz qoşulub oxunması müşayiət xarakteri daşıyır. Bu baxımdan yallı və halayları musiqi və ifaçılıq xüsusiyyətlərinə görə musiqi folklorunun ayrıca bir janrı olaraq, mərasim mədəniyyətinin tərkib hissəsi kimi xarakterizə olunur.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd edilir.

Toy mərasimi bədii tam kimi çox mürəkkəb hadisəni təmsil edir. Burada incəsənətin müxtəlif növləri –musiqi, poeziya, xoreoqrafiya, teatr, dekorativ-tətbiqi sənət təqdim olunur. Bu baxımdan, Azərbaycan toy mərasimində çıxış edən bədii, maddi, praktiki tərəflərin üzvi birliyi diqqəti cəlb edir.

Dissertasiyada toy mərasiminin bədii komponentinin təzahür formaları, rolu və əhəmiyyəti üzərində dayanmışıq. Tədqiqatın çərçivəsində bir sıra vacib aspektləri qeyd etməliyik. Bunlardan: toy mərasim mentalitetindən bilavasitə asılı olan qanunauyğunluqlarının, hər bir incəsənət növünün

mərasim kontekstində iştirakını şərtləndirən forma-yaranma proseslərinin öyrənilməsi önə çıxır. Mərasim dramaturgiyası və onun bədii tərtibat dramaturgiyasının qarşılıqlı əlaqəsi, mərasimlərdə incəsənətin genetik öyrənilməsi onun yaranmasının regional xüsusiyyətləri haqqında məsələni ortaya qoymağa imkan verir.

Toy mərasim mədəniyyətində musiqinin rolunu və əhəmiyyətini tədqiq edərək, Azərbaycan incənətinin müxtəlif növlərinə diqqət verilmişdir. Lakin əsasən musiqi folkloruna – xalq mahnı və rəqsləri üzərində dayanmağı vacib bilmişik. Toy mərasimində musiqi sənətinin üstünlük təşkil etməsi vahid elmi baxışın, sistemli yanaşmanın tətbiqinə imkan verir ki, burada da Azərbaycan incəsənətinin vahid funksional məzmunu musiqi folkloru vasitəsilə araşdırılır. Beləliklə, bir sıra özünəməxsus cəhətlər onların universal əlamətlərilə əlaqələndirilmişdir.

Musiqi folklorunun mərasim vəhdəti kontekstində öyrənilməsi bütövlükdə Azərbaycan incəsənətinə xas olan sabit eyniliklərin, oxşarlıqların, qanunauyğun tipologiyanın açıqlanmasına imkan verir. Mərasimlərdə funksional-məzmunlu elementlərin eyniliyinin əsaslandırılması təkcə mərasim dünyabaxışının xüsusiyyətlərini deyil, həm də incəsənətin konkret növlərinin tarixi və nəzəri planda xüsusiyyətlərini açıqlayır. Toy mərasimində musiqi folklorunun öyrənilməsi sənətşünaslığın müəyyən aspektlərinin, məsələn, mərasim mədəniyyətində sintetik formaların rolu, Azərbaycan incəsənətinin inkişafında mərasim komponentinin rolu kimi problemlərin araşdırılmasına kömək edir.

Beləliklə, dissertasiyanın vacib nəticəsi Azərbaycan toy mərasimində çıxış edən musiqi folklorunun müxtəlif növlərinin struktur oxşarlığını aşkarlanmasından ibarətdir. Dissertasiyada göstərilir ki, mərasim hadisələrinin mürəkkəbliyi burada çıxış edən musiqi folklorunun müxtəlif növləri vasitəsilə üzə çıxır. Həm mərasim məzmunu, həm bədii məzmun xalq mədəniyyətinin tamlığını təşkil edir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur**:

1. Milli musiqi folklorşünaslığının bəzi problemləri. / "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri". ADMİ-nun 90 illiyinə həsr olunmuş X Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2012. s.54-56.
2. Azərbaycan musiqi folklorunun tədqiqi problemləri. /AMEA Humanitar və ictimai elmlər bölməsi. Bakı Slavyan Universiteti. "Azərbaycanşünaslığın aktual problemləri". Ümummilli lider Heydər Əliyevin anadan

olmasının 89-cu ildönümünə həsr olunmuş III Beynəlxalq elmi konfrans. Bakı, 2-5 may 2012. s.220-222.

3. Azərbaycan mədəniyyətində toy mərasim mədəniyyətinin yeri və əhəmiyyəti. // "Musiqi dünyası" jurnalı, № 4/53 2012. s.1-5. http://www.musigi-dunya.az/new/read.magazine.asp?num=60

4. Azərbaycan toy mərasim musiqisinin əsas cəhətləri. // "Musiqi dünyası" jurnalı, № 4/57 2013.s.1-4. http://www.musigi-dunya.az/new/read.magazine.asp?id=1716.

5. Azərbaycan toy mərasim mahnılarının not yazılarına dair. /"Türk-soylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri". ADMİ-nun 90 illiyinə həsr olunmuş XI Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2013. s.59-61.

6. Fikrət Əmirovun nota yazdığı xalq mərasim mahnıları. / "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri". ADMİ-nun 90 illiyinə həsr olunmuş XII Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2014. s.57-58.

7. Halay və yallı janrları – toy mərasim musiqisinin tərkib hissəsi kimi. // "Harmony" Международный музыкальный културологический жур-нал. http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=644&=1&iss=25. Выпуск №13/2014.

8. Toy mərasim mahnılarının janr və musiqi dilinin xüsusiyyətləri. // "Harmony" Международный музыкальный културологический жур-нал. http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=645&=1&iss=26. Выпуск №14/2015.

9. Toy mərasiminin kompleks öyrənilməsi problemi. / IX İnternational Turkic Culture, Art and Protection of Cultural Heritage Symposium/Art Activit. İnterecci di Culture. 07-11. September 2015, Verona-İtaly.

10. Toy mərasimində instrumental rəqs musiqisinin xarakterik cəhətləri. // "Harmony" Международный музыкальный културологический жур-нал. http://harmony.musigi-dunya.az/RUS/reader.asp?txtid=646&=1&iss=1. Выпуск №15/2016. s.1-4.

11. Azərbaycan xalqının toy mərasim musiqisi. // "Rast" muzikoloji dergisu. Tokat – Türkiye, 2016, s. 1211-1216

**Самира Азер гызы Азизова**

## Исследование музыкального фольклора в азербайджанском свадебном обряде

## РЕЗЮМЕ

Диссертация посвящена изучению свадебного обряда в музыкальной культуре Азербайджанского народа. Свадебный обряд, как культурно-исторический, фольклорно-этнографический феномен, вобрал в себя народное изустное поэтическое и музыкальное творчество, в котором отражаются древние мировоззрения народа связанные с семейной жизнью, этическими нормами и духовными принципами. Фольклор и свадебный обряд, как взаимосвязанные понятия раскрывают пути к познанию общественной жизни и быта древнего этноса. Свадьба – неотъемлемая часть культуры народа и проявление национального духа. В современный период составные части претерпели изменения, несмотря на это свадебный обряд сохранил стабильные черты древних обычаев, укоренившихся в сознании народа и оживляет целую панораму многоуровневой культуры народа. Изучение всех этих проблем является актуальным направлением в искусствоведении и одинакого привлекает внимание фольклористов, историков, этнографов, литературоведов, музыковедов.

Диссертация состоит из введения, 2-х глав, заключения и библиографии. **I глава** диссертации – **«Проблема комплексного изучения свадебного обряда»** состоит из 2-х разделов: **1.1. «Роль и значение свадебной церемонии в обрядовой культуре Азербайджана»; 1.2. «Обобщенные и локальные особенности свадебного обряда»**

**II глава – «Основные черты музыкального оформления свадебного обряда»** состоит из 3-х разделов: **2.1. «Жанровые особенности музыкальный язык свадебных песен»; 2.2 «Характерные черты инструментальной танцевальной музыки в свадебном обряде»; 2.3. «Жанры халай и яллы, как составные части свадебного обряда».**

В заключении даются выводы и обобщения проведенного музыкального анализа, рассмотренных на примере свадебных песен и танцев в азербайджанском обрядовом фольклоре.

**Samira Azer Azizova**

## The study of folk music in the Azerbaijani wedding ceremony

## SUMMARY

The thesis is devoted to the study of the wedding rite in the musical culture of the Azerbaijani people. Wedding ceremony, as a cultural-historical, folklore-ethnographic phenomenon absorbed orally popular poetic and musical creativity, which reflects the ancient world of the people associated with family life, ethical and spiritual principles. Folklore and wedding ceremony as related concepts, the ways to the knowledge society and everyday life of the ancient ethnic group. Wedding - is an integral part of the culture of the people and the manifestation of the national spirit. In the modern period components have changed, in spite of this wedding ceremony kept stable features of the ancient traditions, rooted in the minds of the people and revives the whole panorama of multi-level people's culture. The study of all these problems is the current trend in art and equally attracts the attention of folklorists, historians, anthropologists, literary critics, musicologists.

The thesis consists of an introduction, 2 chapters, conclusion and bibliography .

**Chapter I** of the dissertation – **"The problem of the complex study of the wedding rite"** - consists of 2 sections: **1.1. "The role and significance of the wedding ceremony in the ritual culture of Azerbaijan"; 1.2."Generalized and local features of the wedding ceremony".**

**Chapter II - "The main features of the musical decoration of the wedding ceremony"** - consists of 3 sections: **2.1. "Genre features of the musical language of wedding songs"; 2.2 "Characteristic features of instrumental dance music in the wedding rite"; 2.3. "The genres of the halai and yallas, as part of the wedding ceremony".**

Finally, conclusions and generalizations of the musical analysis are given, on the example of the considered wedding songs and dances in the Azerbaijani ritual folklore.

Çapa imzalanıb: 27.03.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ имени
УЗЕЙРА ГАДЖИБЕЙЛИ**

***На правах рукописи***

**САМИРА АЗЕР гызы АЗИЗОВА**

# ИССЛЕДОВАНИЕ МУЗЫКАЛЬНОГО ФОЛЬКЛОРА В АЗЕРБАЙДЖАНСКОМ СВАДЕБНОМ ОБРЯДЕ

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2017**